*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 3, s. 17-24*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 3, p.17-24*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 3, с.17-24*

**UOT: 37.015:316.47**
https://doi.org/10.30546/670832.2025.02.1005

# Ailədaxili münasibətlərin formalaşmasında xalqın etnik xarakterinin rolu haqqında

**Müəllif(lər):**

**Aytəkin Qəhrəmanova**
Naxçıvan Müəllimlər İnstitutu
Tarix üzrə fəlsəfə doktoru
**E-poçt:** aytekinqehramanova@nmi.edu.az

**Açar sözlər:** Azərbaycan ailəsi, ailədaxili münasibətlər, uşaqların tərbiyəsi, milli-mənəvi dəyərlər, valideyn rolu, səmimiyyət, hörmət, etimad

**Annotasiya.** Bu məqalədə Azərbaycan ailəsində ailədaxili münasibətlərin formalaşması, uşaqların tərbiyəsində valideynlərin və ətraf mühitin rolu, eləcə də milli-mənəvi dəyərlərin qorunması və nəsildən-nəslə ötürülməsi məsələləri araşdırılmışdır. Tədqiqatın nəticələrinə görə, ailə uşaqların əxlaqi, mənəvi, intellektual və emosional inkişafında əsas sosial mühitdir. Valideynlərin övladlara qarşı məsuliyyətli, tələbkar və eyni zamanda səmimi münasibəti onların şəxsiyyətinin formalaşmasında həlledici əhəmiyyətə malikdir.

Azərbaycan ailəsində ailədaxili münasibətlər etnik xüsusiyyətlər, böyüklərə və qadınlara hörmət, qarşılıqlı etimad və səmimiyyət prinsipləri əsasında qurulur. Tarixi mənbələr, o cümlədən C.Məmmədquluzadə və digər maarifpərvər ziyalıların əsərləri göstərir ki, ailədə tərbiyə övladlara əməyə hörmət, doğruluq, vətənpərvərlik, milli-mənəvi dəyərlərə bağlılıq və etika prinsiplərini aşılamaq üçün əsas vasitədir. Məqalədə həmçinin uşaqların tərbiyəsində ananın, atanın və ailənin digər üzvlərinin rolu, eləcə də ailə başçısının nüfuzu və etimad əsasında qurulan münasibətlərin əhəmiyyəti vurğulanmışdır.

Müasir dövrdə də ailədaxili münasibətlər ənənəvi adət-ənənələr və milli dəyərlərə əsaslanaraq qurulur. Uşaqların tərbiyəsində əsas prinsip qarşılıqlı hörmət, səmimiyyət, doğru ünsiyyət, əmək və əxlaq tərbiyəsidir. Məktəb, geniş sosial mühit və ictimai təsirlər də uşaqların şəxsiyyətinin inkişafına yardımçı olur, lakin ailənin rolu hələ də önəmli olaraq qalır.

Nəticədə, Azərbaycan ailəsi yalnız övladların tərbiyəsində deyil, həm də milli kimliyin qorunması, gələcək nəsillərin vətənpərvər, mədəni və mənəvi cəhətdən yetkin şəxsiyyət kimi yetişdirilməsində əsas sosial institut olaraq çıxış edir. Məqalə göstərir ki, ailədaxili münasibətlərin sağlam və səmimi qurulması uşaqların əxlaqi, sosial və emosional inkişafının təmin edilməsində kritik əhəmiyyət kəsb edir.

# The Role of ethnic character of nation in the formation of inter family relations

**Author(s):**

**Aytekin Gahramanova**
Nakhchivan Teachers Institute
PhD on History
**E-mail:** aytekinqehramanova@nmi.edu.az

**Key words:** Azerbaijani family, inter family relations, child upbringing, national-moral values, parental role, sincerity, respect, trust

**Abstract.** This article deals with the formation of inter family relations in Azerbaijani families, the role of parents and the surrounding environment in child upbringing and the preservation and intergenerational transmission of national-moral values. The study findings indicate that the family is the primary social environment for children's moral, ethical, intellectual and emotional development. Parents' responsibility, demanding and sincere attitude towards their children plays a decisive role in the formation of the child's personality.

İn Azerbaijani families, inter family relations are structured based on ethnic characteristics, respect for elders and women, mutual trust and sincerity. Historical sources, including the works of J.Mammadguluzade and other enlightened intellectuals show that family upbringing serves as a key tool to instill respect for labor, honesty, patriotism, attachment to national-moral values and ethical principles in children. The article also emphasizes the roles of a mother, a father,and other family members as well as the influence of the family head in establishing trust-based relationships.

Even nowadays inter family relations are built on traditional customs and national values. The fundamental principles in child upbringing include mutual respect, sincerity, proper communication, labor and moral education. Schools, broader social environment and public also influences to contributethe development of children's personality however the family's role remains crucial.

As a result Azerbaijani family acts not only as the primary institution for raising children but also as a key social institution for preserving national identity and cultivating future generations as patriotic, culturally and morally developed individuals. The research demonstrates that establishing healthy and sincere intra-family relations is critically important for children's moral, social and emotional development.

# О роли этнического характера народа в формировании внутрисемейных отношений

**Автор(ы):**

**Айтекин Гахраманова**
Нахчыванский институт учителей
Доктор философии по истории
**Э-почта:**aytekinqehramanova@nmi.edu.az

**Ключевые слова:**
азербайджанская семья, внутрисемейные отношения, воспитание детей, национально-духовные ценности, роль родителей, искренность, уважение, доверие

**Аннотация.** В статье исследуются особенности формирования внутрисемейных отношений в азербайджанской семье, роль родителей и социальной среды в воспитании детей, а также вопросы сохранения и передачи национально-духовных ценностей от поколения к поколению. Результаты исследования показывают, что семья является основной социальной средой в нравственном, духовном, интеллектуальном и эмоциональном развитии детей. Ответственное, требовательное и одновременно искреннее отношение родителей к детям имеет решающее значение в формировании их личности.

Внутрисемейные отношения в азербайджанской семье строятся на основе этнических особенностей, уважения к старшим и женщинам, принципов взаимного доверия и искренности. Исторические источники, в том числе произведения Дж.Мамедгулузаде и других просветителей, свидетельствуют о том, что семейное воспитание является основным средством формирования у детей уважения к труду, честности, патриотизма, приверженности национально-духовным ценностям и нормам этики. В статье также подчеркивается роль матери, отца и других членов семьи в воспитании детей, а также значимость авторитета главы семьи и отношений, основанных на доверии.

В современных условиях внутрисемейные отношения продолжают формироваться на основе традиционных обычаев и национальных ценностей. Основными принципами воспитания детей являются взаимное уважение, искренность, культура общения, трудовое и нравственное воспитание. Хотя школа, расширенная социальная среда и общественные воздействия способствуют развитию личности ребенка, роль семьи по-прежнему остается ведущей.

В итоге азербайджанская семья выступает важнейшим социальным институтом не только в воспитании детей, но и в сохранении национальной идентичности, формировании будущих поколений как патриотичных, культурных и духовно зрелых личностей. Статья подтверждает, что здоровые и искренние внутрисемейные отношения имеют критическое значение для обеспечения нравственного, социального и эмоционального развития детей.

**Giriş**. Müəyyən tarixi dövrlərdə maddi-mənəvi həyat tələbatından doğan, yaşlı nəsildən gənc nəslə çatdırılan davranış qaydaları və əxlaq normaları ailədə formalaşır və nəsil-dən-nəslə adlayır. İnsan həyatının ən mühüm hissəsi ailədə - həyat yoldaşı, uşaqlar və qohumlarla ünsiyyətdə keçirir. Bu ünsiyyətlər içərisində başlıca yeri ata-ana, bacı-qardaş, övlad və baba-nənə münasibətləri tutur və ailədaxili münasibətləri təşkil edir [1, 3, 95]. Ailədaxili münasibətlər isə xalqın etnik xarekteri ilə səciyyələnir, çünki hər bir etnik qrupun özünəməxsus adət-ənənələri, dəyərləri və sosial davranış qaydaları var. Ailədaxili münasibətlər ailə üzvlərinin bir-biri ilə necə ünsiyyət qurduğunu, uşaqların tərbiyəsini və s. müəyyən edir.

Azərbaycan ailəsində ailə üzvlərinin normal həyat fəaliyyəti ilə bağlı olan bütün məsələlər, ata və ananın, atanın uşaqlarla, ananın uşaqlarla, bacının qardaşlarla münasibətləri şəraitində həll olunur. Ailədaxili münasibətlər içərisində ən aktual olanı valideynlər arasındakı psixoloji mühitdir. Ailədə valideynlər arasındakı münasibətlər uşaqların tərbiyəsində əsas rol oynayır. Ailədaxili münasibətlər içərisində kiçiklərin böyüklərə, uşaqların valideynlərə və əksinə, ailədə qadınlara, qocalara hörmət, ata-ananın yanında uşaqlara münasibət maraq doğurur. Hər şeydən əvvəl, onu qeyd etmək lazımdır ki, ailə uşaqları tərbiyə edir, gələcək vətəndaşa, yetişməkdə olan şəxsiyyətə hərtərəfli təsir edir. Ailə daxilində formalaşan münasibətlərdə, həmçinin xalqın etnik simasını, etnik xarakterini səciyyələndirən xüsusiyyətlər özünü büruzə verir. Ailədaxili münasibətlərdə "ailə başçısı" anlayışı xüsusi yer tutur. Ailə başçısı - "ağsaqqal", "böyük ata", "böyük ana" termini hələ patriarxal ailənin mövcud olduğu şəraitdə yaransa da, öz əhəmiyyətini müasir dövrdə də itirməmişdir [3, s.107].

Azərbaycanda ailədaxili münasibətlərdə böyüyə hörmət öndə durur. Azərbaycan ailəsində isə ata böyük hörmət sahibidir, ailə məsələlərinin həlledicisidir. Ata evə daxil olanda hörmət əlaməti olaraq qalxıb onu salamlayar və onun hər bir buyuruğunu yerinə yetirərdilər. Ata evdə olanda hörmət əlaməti olaraq evin qız-gəlini hündürdən danışmaz, öz hərəkətlərinə fikir verər və özlərindən böyüklərdən yaşınardılar.

Ailədaxili münasibətlərin tənzimlənməsində ananın mühüm rolu vardır. Ana təkcə uşaqları dünyaya gətirməklə kifayətlənmir, o, uşaqların tərbiyəsi ilə məşğul olub, onların sağlam böyümələrində mühüm rol oynayır. Azərbaycan ailəsində bütün dövrlərdə anaya-qadına böyük qüvvə kimi baxılıb. Hələ vaxtilə anaya-qadına böyük qüvvə kimi baxan xalqımızın böyük mütəfəkkiri, görkəmli maarifçi C.Məmmədquluzadə qadınların kişilərlə bərabər, tam hüquqlu, savadlı olmasını arzulayırdı.

Uşaqların tərbiyə edilməsində ananın-qadının rolunun əvəzedilməz olduğunu söyləyən C.Məmmədquluzadənin ən böyük arzusu qadınların təhsil alması, onların savadlanması idi. Savadlı qadın təkcə uşaqlarının tərbiyəsi üçün deyil, həmçinin cəmiyyət üçün gərəkli idi. Böyük Mirzə Cəlil görkəmli maarifpərvər publisist İsa Sultan Şahtaxtlının qızı Leyli xanım Şahtaxtılının vaxtsız vəfatı münasibətilə yazdığı məqalə-nekroloqunda deyirdi:"1902-ci ildə Tiflisdə Qız İnstitutunu qurtardıqdan sonra 1904-cü ilin sentyabr ayında Şvetsariyaya və orada darülfününun həkimlik şöbəsinə girib. Hacı Zeynalabdin Tağıyev cənablarının köməkliyi ilə üç il orada təbabət elmini oxumaqda idi. İki ildən sonra həkimlik dərsini qurtarıb şəhadətnamə alacaq idi və gəlib vətənində biçarə müsəlman övrətlərinin min-min dərdlərinə şəfa verəcək idi.Əfsus! Qismət olmadı." [14, s.175-176]. Qeyd etmək lazımdır ki, hələ o, dövrdə valideynin öz qızını vətəndən uzağa, özgə bir məmləkətə göndərib təhsilini davam etdirməsinin qayğısına qalması həmin ailənin ailədaxili münasibətlərinin qarşılıqlı etimad, səmimiyyət üzərində qurulduğunu göstərir. Kiçik bir məqalədə böyük sənətkar Azərbaycan qadınının təhsil dalınca Avropaya getdiyini, orada təhsil alaraq Vətəninə dönüb xalqına xidmət etmək istədiyini, lakin amansız ölümün buna macal vermədiyini açıqlayırdı.

C.Məmmədquluzadənin "Arvad məsələsi" məqasəsində yalnız Azərbaycanın deyil, dünya qadınlarının taleyi haqqında narahat olduğunu və ayrı-ayrı ölkələrin, onların dinlərinin qadına münasibətini şərh edir. Müəllif qadın hüququ məsələsinə toxunub, dinlərin qadına olan münasibətlərini açıqlayır, həmçinin Avropa və Amerika qadınlarının öz hüquqları uğrunda mübarizəyə nə vaxt başladıqlarını və bu mübarizənin nə ilə nəticələndiyi haqda məlumat verir. C.Məmməd-

quluzadə məqalədə məşhur ingilis yazıçısı Con Stüart Millin ingilis parlamentində söylədiyi nitqindən bəhs edərək, ilk dəfə olaraq qadınların siyasi ixtiyarlarının bərabərlik məsələsinə toxunulduğunu və bu məsələnin dəfələrlə ingilis parlamentində müzakirəyə qoyulduğunu, lakin lazımınca həll olunmadığını qeyd edir.

Hindistanda, yunan və rumlarda qadına münasibətdən bəhs edən müəllif bu ölkələrdə qadına həqarətlə baxıldığını yazır. Müəllif məqalədə rum və fransızların qadına münasibətlərindən danışarkən yazır: "Rəvayətdir ki, keçmişdə Fransa senatı belə bir qərarnamə yazmış: "Vəhşi insanlara da yarasan iş deyil, nəinki sizə ki, arvadlar öz iynə-saplarını qoyub və gəlib kişilərə qoşulub siyasi işlərə müdaxilə etsinlər, çox və çox eyib ola" [14,s. s.199]. Fransa senatının dediyi bu sözlərdən çox-çox əvvəl dövlət idarəetmə qabiliyyətinə malik olan qəhrəman qadınlarımız-Tomrislər, Sara xatunlar, Nüşabələr var idi.

Yazılı mənbələrə söykənərək deyə bilərik ki, Azərbaycanda qadına münasibət tarixin bütün dönəmlərində təqdirəlayiq olub. "Kitabi-Dədə Qorqud" dastanında ailədaxili münasibətlərdə qadına dərin hörmət bəslənilməsinin və bütün məsələlərin həllində onlarla məsləhətləşmənin şahidi oluruq. Qazan xan öz qadınına belə müraciət edir:

Bəri gəlgil, başımın baxtı, evim taxtı!
Evdən çıxıb yürüyəndə sərvi boylum!
Topuğuna sarmaşanda qara saçlım!
Güz almasına bənzər al yanaqlum,
Qadınım, dirəyim, döləyim [10,s.11].

Yüksək əxlaq sahibi olan oğuz igidləri qadına hörmətlə yanaşırdılar. Ailə üzvləri arasında münasibətdə səmimiyyət əsas rol oynayırdı. Oğuzlarda ananın haqqına Tanrı haqqı kimi baxılır. Qadınlar isə bütün dövrlərdə kişilərdən yaşınar, yəni utanar və gizlənərdilər.

Dinlərin qadına münasibətinə gəldikdə isə, zəngin mənəvi dəyərləri, yüksək əxlaqiliyi ilə fərqlənən İslam dini qadından ismət və iffət, kişidən namus və qeyrət, hər iki valideyndən isə nümunəvi əxlaq tələb edir. Başqa dinlərdən fərqli olaraq İslam dini tam yeni bir dindir, o, ictimai qanunları təhlil etmiş, qadın və kişilərin tam bərabər hüquqlu olduğunu elan etmişdir. İslam dinində qadınlara hörmət, fəxri münasibətlər formalaşmışdır. "Gender və ekologiya" kitabında belə bir fakt diqqəti cəlb edir. Alman tədqiqatçısı Murad Vilfrid Hofmann "Almaniyalı müsəlmanın gündəliyidən" kitabında yazır: "Müsəlman qadınlar, şəriətin buyurduğu kimi, 1400 il ərzində elə hüquqlardan istifadə ediblər ki, onların Avropadakı bacıları bunları yalnız XX əsrdə böyük çətinliklə əldə edə bildilər" [ 2, s.28,47].

Göründüyü kimi, İslam dini bəşər tarixi ərzində cəmiyyətə misli olmayan dəyişikliklər gətirdi. İslam dininə qədərki dövrdə həmin ölkələrdə qadınlar bütün hüquqlardan məhrum idi. İslam dini qəbul edildikdən sonra bu din qadını həm hüquqi, həm də əxlaqi cəhətdən müdafiə etdi. İslam dini onlara mülkiyyət hüququ, öz əmlakına yiyələnmək hüququ qazandırdı. Qadınlar istər evlənəndə, itərsə də boşananda səs hüququna, varidat əmlak hüququna malik oldu.

Uşaqların tərbiyəsində ailədaxili münasibətləri araşdırarkən valideynlərlə uşaqlar arasındakı münasibət məsələsi də diqqəti cəlb edir. Azərbaycan ailəsində ata ailənin başçısı və qayğıkeşi hesab olunur. Atanın ailədə nüfuzu isə onun şəxsi keyfiyyətlərinə əsaslanır.

Əgər ailə münasibətləri səmimiyyət əsasında qurularsa, valideynlərlə uşaqlar, ata-ana arasında daha çox hörmət olar. Bəzən uşağa qarşı rəhmdillik göstərmək, kor-koranə məhəbbət etmək və onun yersiz tələblərinə əməl etmək, uşaqların xudpəsənd və ləyaqətsiz böyümələrinə səbəb olur. Tarifsiz, əl dəyməmiş mənəvi dəyərimiz olan "Kitabi-Dədə Qorqud" dastanında oğuzların ailə daxilində ata-ana və övlad münasibətlərinin səmimiyyət üzərində qurulması təsvir olunur. Ailədaxili münasibətlərdə səmimiyyət, böyüyə və qadına ehtiram böyük rol oynayır. Ata oğlunun mətin xarakterli bir şəxsiyyət kimi böyüməsini və layiqli bir övlad kimi yetişməsini istəyir: "O zamanlar oğul ata sözünü iki eləməzdi. İki eləsəydi, o cür oğulu qəbul etməzdilər" [10, 3, s.71].

Azərbaycanda ailədaxili münasibətlər içərisində valideynlərlə uşaqlar arasında səmimiyyət, uşaqlara inam əsas götürülülür. Ailədə valideynlərə hörmət, onlara yalan danışmamaq hisslərini valideyn övladına aşılamalıdır. Əlbəttə, uşağa qarşı təkrar olunan məzəmmət, səhvlərin tez-tez nəzərə çarpdırılması və s. onların ləyaqətini və hissiyyatını tapdalayır.

Bu bir həqiqətdir ki, tarixin bütün dönəm-

lərində ailənin mühüm funksiyasını uşaqların tərbiyəsi təşkil etmişdir. Dünya xalqlarının uşaq tərbiyəsi haqqında özünəməxsus təsəvvür və anlayışları, adət və ənənələri vardır. Deməli, ailədə uşaqları tərbiyə edərkən heç bir yazılı məlumatdan, kiminsə irəli sürdüyü müəyyən üsul və digər vasitələrdən istifadə edilməmişdir. Ailədə uşaqların tərbiyəsini əsas etibarı ilə adət-ənənələr vasitəsi ilə həyata keçirirdilər. Ailə tərbiyəsində bərqərar olmuş adət-ənənələr təkcə böyüklərlə kiçiklər arasında qarşılıqlı münasibətləri tənzim etmirdi. Onlar yaş xüsusiyyətləri ilə yanaşı, cinsi fərqlərə xüsusi diqqət yetirir, oğlanlarla qızların tərbiyəsində bu amilin mühüm rol oynadığını göstərirdilər.

Nəsillərdən keçib gəlmiş, etnosun xüsusiyyətlərini özündə cəmləşdirməklə tam sintez olunmuş xalq tərbiyə prinsipində yığcamlıq, konkretlik daha çox nəzərə çarpır. Ənənəvi tərbiyə məsələsində əsas üç prinsip-övladlarının təlimi, əxlaq və əmək tərbiyəsi valideynlərin diqqət mərkəzində durur [3, s.132].

Ailə quruculuğunda isə ən böyük hadisə övlad törənişidir. Övlad ailədə ata və ana subyektlərinin bir-birinə bağlanmasına səbəb olur, ailənin dairəsini genişləndirir, həm də onu möhkəmləndirir. Övlad ailəni cəmiyyətə bağlayan ən zəruri bağlardan biridir. Ailənin başlıca xüsusiyyətlərindən biri nəsil artırmaqdan ibarətdirsə, tərbiyədə əsas məqsəd isə dövrün tələbləri səviyyəsində insan formalaşdırmaqdır. Ailədaxili həyat tərzi uşağın mənəviyyatına, onun xarakterinin formalaşmasına böyük təsir göstərir [18, s.222].

Tədqiqat obyektimiz yazılı mənbələr olduğu üçün böyük maarifpərvər C.Məmmədquluzadənin əsərlərini təhlil etdikdə müşahidə edirk ki, ustad yazıçı tərbiyədə ən başlıca amil olaraq ailə tərbiyəsini dəyərləndirmişdir. Müəllif uşaqların tərbiyəsi haqqında "Uşaqlarımız" felyetonunda yazırdı: "...Özgə işlərdə də səliqəsiz olmağımız ötüşsə, burada ötüşməyəcək, ondan ötrü ki, bizim bu gödək ömrümüzdə bizə tək bircə dəfə uşağa tərbiyə vermək qismət olacaq, bu işi də labüd biz gərək öyrənək-öyrənməsək böyük insafsızlıq eləmiş olacağıq" [13, s.102].

Göründüyü kimi, yazıçı uşaqlara tərbiyə verərkən valideynlərin məsuliyyətli və özlərinə qarşı tələbkar olmalarını tövsiyə edirdi. İnsan anadan pis və ya gözəl əxlaqi sifətlərlə doğulmur. İnsanın gözəl sifətləri və ya mənfi əxlaqi xüsusiyyətləri yalnız tərbiyə sayəsində qazanılır. İnsan tərbiyəni əsas etibarilə uşaqlıq və gənclik dövrlərində alır. C.Məmmədquluzadə kimi bir çox maarifçi sənətkarlar da tərbiyənin əsasının ailədə qoyulduğunu qeyd edirlər.

Görkəmli maarif xadimi F. Köçərli tərbiyə amillərindən ailə tərbiyəsini misal gətirərək yazırdı: "…Ailədə, ailə arasında uşaq öz bilik və vəsaili-mənəviyyəsinin əsasını alır. Burada onun qəlbinə bəyənilmiş xasiyyətlərin, yaxud qəbahətlərin toxumları saçılır, ailədə hökmfərma yavaş-yavaş onun qəlbində yer tutur…Uşaq öz ailəsində sədaqət, zəhməti sevmək, yaxud adamlara məhəbbət, itaət və ifayi- vəzifə görür özündə bu xüssiyyətləri əks etdirir" [9, s.11-12].

Böyük maarifpərvər C.Məmmədquluzadə "Anamın kitabı" əsərində Zəhrabəyim ana övladlarının tərbiyəsində onların Vətənə, anaya, öz xalqına məhəbbət ruhunda, bir sözlə, milli zəmin əsasında böyüməlırini istəyir. Lakin ananın oğulları Vətənlərindən illərcə ayrı düşmüş, öz etnik xüsusiyyətlərini tamamilə yaddan çıxarmış, milli psixologiyalarından uzaqlaşmış gənclər idi. Ailədə təkcə Gülbahar öz ana dilində təhsil almış, dilini, milli adət-ənənəsini sevən bir azərbaycanlı qızı kimi təsvir olunmuşdur. "Anamın kitabı" böyük tərbiyəvi əhəmiyyətə malik olub, milli-mənəvi özünüdərk, vətənçilik, milli birlik və müstəqillik dərsliyidir [15, s.22].

Müəllif "Saqqallı uşaq" hekayəsində uşaqların tərbiyəsində, əsasən, uşaqların düzgün danışmasını, valideynin özünə qarşı məsuliyyətli olmasını qeyd edir. Hekayədə təsvir olunur ki, ata hər gün qapı-bacanın yazıldığını görür və düşünür ki, bunu uşaqlar edib. Uşaqlarının andaman etməklərinə baxmayaraq, ata onlara inanmır. Övladlarının səmimi etiraflarına inanmayan atanı narahat edən tərbiyə məsələsi idi. "...Aya görək mən uşaqlarıma verdiyim tərbiyənin hansı bir tərəfi yanlış yola düşüb, aya, görək mən kimi bir qoca mürəbbinin səhvi harada olub və bundan sonra uşaqlarımın barəsində bəslədiyim rəftarın hansı tərəfinə təğyir verməliyəm" [11, s.265].

İlk növbədə, yazıçı valideynin övladına qarşı olan inamsızlığını açıqlayır, sonra isə atanın bir valideyn kimi öz üzərində məsulliyət hiss edərək verdiyi tərbiyənin harasında səhv etdiyini və bu səhvi necə düzəldəcəyini fikirləşir. Gö-

ründüyü kimi, yazıçı tərbiyədə əsas məsuliyyəti valideynin daşıdığını bildirir və valideynin özünə qarşı tələbkar olmasını tövsiyə edir. Görkəmli pedaqoq A.S.Makarenkonun fikrincə, tərbiyənin birinci əsas üsulu valideynin özünə qarşı tələbkar olması, öz evində bir valideyn kimi hərəkət etməsi, hər bir addımını valideyn kimi nəzarət altına almasındadır [16, s.281].

Ailədə uşaqların tərbiyəsində öyüd-nəsihət başlıca rol oynayır. Görkəmli Azərbaycan şairi M.Füzulinin "Rindü Zahid" əsərində tərbiyə ilə bağlı dəyərli nəsihətlər var. Füzuli tərbiyə işində atanın roluna xüsusi yer verir və valideynlərin uşaqlara sənət öyrətməsini diqqətdən qaçırmır. Şair həmçinin bu fikirdədir ki, uşaqların tərbiyə prosesində yalan danışmağa və yalançıların uşaqların yanında tərif edilməsinə yol verilməməlidir. Ölməz şair uşaqların tərbiyəsində əməyə yüksək qiymət verir və mal-dövlət hərisliyindən uzaqlaşmağa çağırır [17, s.216].

Hələ vaxtilə C.Məmmədquluzadə ailə və cəmiyyətdə hökm sürən ağalıq-tabelik münasibətlərinin gənclərin əxlaqına ciddi mənfi təsir göstərdiyini, onlarda zülmkarlıq, qorxaqlıq, mütilik, ədavətlilik, kinlilik aşılandığını dönə-dönə qeyd edirdi. Ailədə ailə başçısının özünü ağa kimi aparmasına, məktəbdə isə müəllimin əxlaq tərbiyəsini həyata keçirməsi zamanı kötək üsulundan istifadəsinə qarşı kəskin etiraz edirdi.

M.T.Sidqinin fikrincə, valideynlərin bir-birinə olan münasibətləri uşaqların tərbiyəsinə ciddi təsir göstərir. M.T.Sidqi yazırdı: "Uşağın əvvəlinci müəllimi bitəbii onun valideynləridir" [6, s.16].

Etnoqrafik mənbələrdən aydın olur ki, "... Oğuz elində və yəqin ki, bütöv türk coğrafiyasında insan uşaqlıqdan qocalana qədər, beşikdən gor evinəcən ictimai himayədədir. Yüksək sivilizasiyalı ölkənin aristokrat ailələrində olduğu kimi, qədim Oğuz ailəsində də körpə doğulan kimi dayəyə tapşırılır. Dayə uşağın gigiyenik qidalanmasının, gigiyenik bəslənməsinin təminatçısı olduğu kimi, həm də tədricən əqli tərbiyəsi ilə məşğul olurdu. Yetkinlik çağına çatan Oğuz övladlarının davranışından, cəmiyyətdəki yerindən aydın olur ki, Oğuz ailəsində uşağın fiziki, əqli və estetik tərbiyəsi vəhdətdə aparılır" [5, s.16].

Müqayisəli araşdırmalar onu deməyə imkan verir ki, qədim yazılı abidələrimizdən olan "Kitabi-Dədə Qorqud" dastanında uşaqların hərtərəfli inkişaf edib, tərbiyələndirilməsi müasir sivil ölkələrlə eynilik təşkil edir. "Dədə-Qorqud" dastanından aydın olur ki, Oğuz elində dünyaya gələn körpəni öz soyundan olan mürəbbilər milli mentalitet əsasında tərbiyə edirdilər. Onu da qeyd etmək lazımdır ki, elə XIX əsrdə də varlı ailələrdə uşaqların tərbiyəsi mürəbbilərə tapşırılırdı. Öz millətindən olan bu tərbiyəçilər uşaqlara ana yurda, doğma təbiətə, ana dilinə sevgi tərbiyə etmişlər [5, s.476].

Müasir dövrümüzdə də ailədaxili münasibətlər adət-ənənəmizə əsaslanaraq səmiyyət və qarşılıqlı hörmət, etimad əsası üzərində qurulur.

Əxlaq tərbiyəsi ilə yanaşı, ənənəvi tərbiyənin əsas üsullarından biri də əmək tərbiyəsidir. Azərbaycan ailəsində uşaqların əmək tərbiyəsinə kiçik yaşlarından başlayardılar. Hələ 3-5 yaşda uşaqları kiçik işlər görməyə sövq edir, müəyyən şeyləri aparıb-gətirməyi öyrədirdilər. Həmin dövrdən etibarən uşaqlara çox ciddi yanaşır, onlara müxtəlif vərdişləri aşılayırlar. Oğlan və qız uşaqları bir az böyüyəndən sonra, yəni 6-7 yaşından etibarən onlara fərqli yanaşırlar. Ailədə uşaqlara düzgün danışmaq, süfrə arxasında oturmaq, oyunlarda iştirak etmək, sərbəst soyunub-geyinmək, səliqəli olmaq və s. davranış və nəzakət qaydalarını öyrədirdilər.

Doğrudur, uşaqların tərbiyəsində əsas rolu valideynlər oynayırlar, lakin ətraf mühitin də onların tərbiyəsinə böyük təsiri vardır. Uşaqların düzgün tərbiyə olunmasında ailə ilə yanaşı, məktəbin də rolu böyükdür. Akademik İsa Həbibbəyli yazır: "Azərbaycanda məktəbin və mədrəsənin yaranması və genişlənməsi maarifçilik hərəkatı ilə bağlıdır. Azərbaycanda maarifçilik XIX əsrin hadisəsi kimi meydana çıxmışdır" [7, s.117].

XIX əsrin sonu - XX əsrin əvvəlində çar Rusiyanın tabeliyində olan Azərbaycanda güclü ruslaşdırma siyasəti yeridildiyindən məktəblərin əksəriyyəti rus dilli idi. Bəzi valideynlər öz uşaqlarını məktəbə qoymazdan əvvəl aparıb rus evlərində tərbiyələndirirdilər. Bu cür halları müşahidə edən Mirzə Cəlil xalqımızın öz dilindən, öz milli-mənəvi dəyərlərindən uzaqlaşdığını görür və əsərlərində həyəcan təbili çalırdı. C.Məmmədquluzadə "Xanımlar" felyetonunda yazır: "Əgər bir az diqqət ilə hesab eləsək ki, əgər statistik qanunu ilə qabağımıza şotka qoyub

və əlimizə qələm götürüb yazaq, baxıb görərik ki, Qafqazda müsəlman cavanlarının hamısının tərbiyəsi rus evindən başlanır…Xanlarımız, bəylərimiz, dövlətli və ya kasıblarımız haman gün ki, istəyirlər uşaqlarını hökumət məktəblərinə qoysunlar, qabaqca aparıb bir rus evinə verirlər…Rus Qafqazı alandan indiyədək mötəbər xanlarımızın uşaqları beş-altı yaşından başlamış veriliblər rus külfətlərinə… Tiflisdə rus evlərində qalan müsəlman uşaqlarının sayı yüzdən artıqdır...Müsəlman uşaqlarını evində saxlayan rusların çoxu qulluqçulardır, vəssalam. Yoxsa bunların tərbiyə işindən heç xəbərdarlıqları yoxdur…" [12, s.345-346].

C.Məmmədquluzadə uşaqların rus evlərində tərbiyə olunmasından narahat idi, çünki rus evlərində uşaqlar yalnız rus yaşam tərzi, rusların içkili məclislərini, xanımların ağalar ilə nəzakət, çəm-xəm və qaş-göz süzdürmələrini görürdülər. Bu ailələr uşaqları xalqımızın milli-mənəvi dəyərlərindən məhrum edirdi.

Rusların həyata keçirdikləri bu siyasət xalqı soykökündən uzaqlaşdırıb, etnosun milli-mənəvi dəyərlərini məhv etməyə istiqamətlənmişdi. Bu cür tərbiyə üsulunun ağır nəticələrini isə biz uzun müddət unuda bilmədik. Azərbaycanda sovet hakimiyyəti illərində az qala bütün xalqı ruslaşdıran rus imperiyası dağıdıldıqdan, xalqımız öz müstəqilliyini əldə etdikdən sonra Ulu öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərimizə qayıdıb, azərbaycançılıq ideyalarına sahib olmağımızda böyük xidmətləri oldu. Sovet ideologiyasının sərt rejimi dövründə Heydər Əliyev xalqımızın mənəvi dəyərlərinin əriyib itməməsi üçün əlindən gələni etdi. Elə bu səbəbdəndir ki, sovet ideologiyası Azərbaycan xalqının milli-mənəvi dəyərlərini şüurlardan silə bilmədi. İndi hər bir azərbaycanlı öz övladını sırf azərbaycançılıq ideyaları əsasında, milli zəmində tərbiyə edir.

Ənənəvi tərbiyə məsələsinin əsas tərkib hissəsi olan təhsil C.Məmmədquluzadə yaradıcılığında xüsusi yer tutur. "Bir gürcüyə cavab", "Çətin məsələyə cavab", "Keçən günlər" və s. felyetonlarında ədib tərbiyə ilə təhsilin inkişafını vəhdətdə görür, onları bir-birindən ayırmır.

Ailə tərbiyəsini əsas götürən müəllif yeni nəsilləri tərbiyəli və hərtərəfli formalaşdırmağın çarəsini balaca qızların tərbiyəsi və oxumaqlarında görürdü.

C.Məmmədquluzadə "Uşaqlarımız" felyetonunda yazır: "Bizim içərimizdə qədim vaxtlardan adət belə olub ki, uşaqlarımızı böyük adamlarımızın məclisindən uzaq tutmuşuq" [13, s.100]. Elə indi də ailədə uşaqlara aid olmayan söhbətlər olanda, onlar başqa otağa keçir və valideynlərin söhbətlərində uşaqların iştirakı məsləhət olunmur. Digər tərəfdən, müəllif qeyd edir ki, "uşaqlar kişilərin yanından uzaq düşüb vaxtlarını ya arvadların məclisində, ya da küçə-bacada keçirməyə məcbur olurlar" [13, s.100]. Həqiqətən, uşaqların valideynlərindən kənarlaşdırılması həm onların tərbiyəsinə, həm də davranış qaydalarına təsir göstərir. Müəllif valideynlərə tövsiyə edirdi ki, uşaqları məktəbə qoymaqla valideyn öz borcunun başa çatdığını və bununla da işinin bitdiyini düşünməsin. Yazıçı yazır: "Elmi ələ gətirmək ilə tərbiyə işi gərək tuş gedələr, hələ bəlkə tərbiyə məsələlərini elm təhsilindən yuxrı tutmaq lazımdır" [1, s.101]. Valideynlərlə uşaqlar arasında münasibətlər şəxsi emosional əsaslar daşıyır. Uşaq daima valideyn nəzarətini öz üzərində hiss etməlidir. Müəllif həmin felyetonunda yazır: "Çox atalar uşaqları oxutduqları məktəbin yolunu və harada olmağını tanımırlar, çünki arxayındırlar ki, övladları orada dərslərini oxumaqdadırlar" [13, s.100]. Görkəmli mütəfəkkirin ailə ilə məktəbin həmişə qarşılıqlı əlaqədə olması haqqında fikri indi də öz aktuallığını saxlayır.

Uşaqların tərbiyəsində ən başlıca yeri "ailə-məktəb" problemi tutur [4, s.486]. 2003-cü ilin sentyabr ayında ölkəmizdə Respublika Milli Valideyn-Müəllim Assosiasiyası təsis edildi. Bu qurumun qarşısında duran əsas məqsəd valideynlərin, ictimaiyyətin məktəbin həyatında rolunu artırmaq, mövcud "valideyn-məktəb", "valideyn-müəllim" münasibətlərinin yeni yanaşma əsasında qurulması, valideynlərin məktəbin fəaliyyətində, idarə olunmasında geniş iştirakının təmin edilməsi ilə bağlıdır [8, s.39]

**Material və metodlar.** Tədqiqatın obyekti olaraq, Azərbaycan ailədaxili münasibətləri və bu münasibətlərdə xalqın etnik xarakterini əks etdirən davranış normaları seçilmişdir. Material kimi əsasən yazılı mənbələrdən, xüsusilə klassik Azərbaycan ədəbiyyatı və maarifçi düşünürlərin əsərlərindən istifadə olunmuşdur. Bu çərçivədə

C.Məmmədquluzadənin felyetonları, hekayələri və publisistik məqalələri, F.Köçərlinin pedaqoji yazıları, M.Füzulinin əsərləri, eləcə də "Kitabi-Dədə Qorqud" dastanı və digər etnoqrafik mənbələr təhlil olunmuşdur. Bundan əlavə, tarixi faktlar və etnoqrafik məlumatlar, həmçinin yazılı sənədlər vasitəsilə ailədaxili münasibətlərdə qadın və uşaq tərbiyəsinin rolu araşdırılmışdır.

Metodoloji olaraq işdə tarixi-tənqidi təhlil, müqayisəli araşdırma, mətnlərin interpretasiyası və məzmun təhlili üsullarından istifadə edilmişdir. Tarixi-tənqidi təhlil vasitəsilə müxtəlif dövrlərə aid mənbələrdəki məlumatların etibarlılığı və konteksti müəyyən edilmişdir. Müqayisəli araşdırma metodu ilə qədim və müasir dövrlərdə Azərbaycan ailəsindəki etnik xüsusiyyətlər və ailədaxili münasibətlərin ümumi xüsusiyyətləri müqayisə olunmuşdur. Mətnlərin interpretasiyası və məzmun təhlili isə klassik və modern yazılı mənbələrdə əks olunan ailə dəyərlərinin, tərbiyə prinsiplərinin və sosial münasibətlərin sistemli şəkildə araşdırılmasını təmin etmişdir.

Tədqiqat, həmçinin tarixi-etnoqrafik yanaşma prinsiplərinə əsaslanır. Bu yanaşma Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin və ailədaxili münasibətlərdə etnik xarakterin formalaşmasını konkret nümunələr üzərində göstərir. Araşdırmada, həmçinin övlad-tərbiyəsi, valideynlər arası münasibətlər, qadın və ata-rollarının tarixi aspektləri və etnik xüsusiyyətlərin ailədaxili davranışlara təsiri xüsusi diqqət mərkəzində olmuşdur.

Beləliklə, işin material bazası yazılı mənbələr, metodoloji çərçivəsi isə tarixi-tənqidi, müqayisəli və interpretativ təhlil üsulları ilə müəyyən olunmuşdur. Bu yanaşma vasitəsilə Azərbaycan ailədaxili münasibətlərində xalqın etnik xarakterinin formalaşması və təsir mexanizmləri sistemli şəkildə təhlil edilmişdir.

**Nəticə və müzakirə**. Aparılan tədqiqat göstərir ki, Azərbaycan ailədaxili münasibətləri xalqın etnik xarakteri və milli-mənəvi dəyərləri ilə sıx bağlıdır. Yazılı mənbələr və etnoqrafik materiallar əsasında aydın olur ki, ailədə övladların tərbiyəsi, valideynlər və ailə üzvləri arasındakı münasibətlər, qadın-kişi rollarının təşkili həm də tarixi və mədəni kontekstdən təsirlənmişdir. Valideynlərin övladlara qarşı məsuliyyət hissi, uşaqlara hörmət və səmimiyyətlə yanaşma prinsipləri ailədaxili münasibətlərin formalaşmasında əsas amillər hesab olunur.

Tədqiqatın nəticələri göstərir ki, ailədə qadının rolu hələ qədim dövrlərdən böyük əhəmiyyətə malik olub. Qadın həm övladın tərbiyəsində, həm də ailə daxilində sosial münasibətlərin qorunmasında əsas fiqur kimi çıxış etmişdir. Bu baxımdan, C.Məmmədquluzadənin, F.Köçərlinin və digər maarifçi yazıçıların əsərlərində qadının təhsil alması və ictimai həyatda iştirakının təşviqi milli-mənəvi dəyərlərin qorunması və inkişafı baxımından xüsusi əhəmiyyət daşıyır.

Müasir dövrdə də ailədaxili münasibətlərdə ənənəvi dəyərlər və etnik xüsusiyyətlər özünü büruzə verir. Uşaqların tərbiyəsində övladın yaşına uyğun davranış qaydalarının formalaşdırılması, əmək və əxlaq tərbiyəsinin ön plana çıxması, həmçinin ailə üzvləri arasında qarşılıqlı hörmət və etimadın qorunması etnoqrafik nümunələrdə də təsdiqlənir. Bu isə göstərir ki, Azərbaycan ailəsində formalaşan tərbiyə prinsipləri və sosial münasibətlər milli-mənəvi ənənələrin müasir şəraitdə davamlılığını təmin edir.

Müzakirə zamanı aydın olur ki, ailədaxili münasibətlərin səmərəliliyi valideynlərin məsuliyyətli davranışı, uşaqlara düzgün örnək göstərməsi və təhsil almış qadınların ailədəki rolunun gücləndirilməsi ilə birbaşa bağlıdır. Tarixi mənbələr göstərir ki, Rus imperiyası və sovet dövründə milli-mənəvi dəyərlərin pozulması və uşaqların fərqli mədəni mühitdə tərbiyəsi müəyyən mənfi təsirlər yaratmışdır. Lakin müasir dövrdə bu mənfi təsirlər aradan qaldırılmış, Azərbaycan ailəsində etnik xüsusiyyətlər və milli dəyərlər əsasında formalaşmış ailədaxili münasibətlər yenidən gücləndirilmişdir.

**Yekun nəticə**. Tədqiqat göstərir ki, ailə milli-mənəvi dəyərlərin qorunması və gələcək nəsillərin tərbiyəsi baxımından əsas institut olaraq qalır. Ailə daxilində formalaşan münasibətlər uşağın şəxsiyyətinin, əxlaqi və mədəni inkişafının, eyni zamanda etnik xüsusiyyətlərinin formalaşmasında həlledici rol oynayır. Bu baxımdan, milli-mənəvi dəyərlərin qorunması və ailədaxili münasibətlərin inkişafı Azərbaycan cəmiyyətinin davamlı inkişafı üçün mühüm əhəmiyyət daşıyır.

**Ədəbiyyat**

1. Axundov S. Ailədə uşaqların tərbiyəsi /

S.Axundov, A.Həsənov. – Bakı: Maarif, – 1991. – 129 s.
2. Bayramova, L. Gender və ekologiya / L.Bayramova. – Bakı: Poliqrafiya Mərkəzi, – 2000. – 302 s.
3. Qədirzadə, H.Q. Ailə və məişətlə bağlı adətlər, inamlar, etnogenetik əlaqələr / H.Q.Qədirzadə. – Bakı: Elm, – 2003. – 368 s.
4. Qasımova, L., Mahmudova, R. Pedaqogika / L.Qasımova, R.Mahmudova. – Bakı: Bakı Universiteti, – 2003, – 535 s.
5. Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. – Bakı: Öndər, – 2004, – 368 s.
6. Göyüşov, Z. Azərbaycan maarifçilərinin əsərlərində əxlaq məsələləri / Z.Göyüşov. – Bakı: Azərnəşr, – 1964, – 159 s.
7. Həbibbəyli, İ. Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri / İ.Həbibbəyli. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1997, – 680s.
8. Hətəmov, A. Məktəb-valideyn-müəllim assosasiyalarının işi barədə // Azərbaycan məktəbi jurnalı. – Bakı, – 2007, №5, – s.39-4292.
9. Kitabi-Dədə Qorqud. – Bakı: Çaşıoğlu, – 2004. – 114 s.
10. Köçərli, F. Seçilmiş əsərləri / F.Köçərli. – Bakı: Elm, – 1963. – 427s.
11. Məmmədquluzadə, C. Əsərləri: 4 cilddə, I c. / C.Məmmədquluzadə. – Bakı: Öndər, – 2004. – 583 s.
12. Məmmədquluzadə, C. Əsərləri: 4 cilddə, II c. / C.Məmmədquluzadə. – Bakı: Öndər, – 2004. – 548. – s.130, – s.345-346.
13. Məmmədquluzadə, C. Əsərləri: 4 cilddə, III c. / C.Məmmədquluzadə.– Bakı: Öndər, – 2004. – 480 s.
14. Məmmədquluzadə, C. Əsərləri: 4 cilddə, IV c. / C.Məmmədquluzadə. – Bakı: Öndər, – 2004. – 576 s.
15. Məmmədov, A. Cəlil Məmmədquluzadə yaradıcılığında Azərbaycançılıq / A.Məmmədov. – Bakı: Elm, – 2003. – 184 s.
16. Makarenko, S. Seçilmiş pedaqoji əsərləri: 2 cilddə, I c. / S.Makarenko. – Bakı: Maarif, – 1983. – 384 s.
17. Məhəmməd, F. Əsərləri: 6 cilddə, V c. / F.Məhəmməd. – Bakı: Şərq-Qərb, – 2005. – 224 s.
18. Sidqi, M.T. Əsərləri / M.T.Sidqi. – Bakı: Çaşıoğlu, – 2004. – 276 s.

*Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vahid Rzayev tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 22.05.2025, son daxilolma – 07.07.2025, qəbulolunma – 10.09.2025